www.everestaudit.az
+994 (50) 210 51 63
Lotos Plaza (Əhməd Rəcəbli 23L)

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

"Həsən Holding" MMC-nin təsisçisinə,

**Rəy**

Biz "Həsən Holding" MMC-nin (bundan sonra 'Şirkət'), eləcə də onun törmə müəssisələrinin (birlikdə 'Qrup') 31 dekabr 2024 tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabat, kapital dəyişikliklər və pul vəsaitlərinin hərəkəti hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə olunmuş konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2024 tarixinə Qrupun konsolidə edilmiş maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Fonddan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-a uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin

konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Qrupin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
Rəhbərlik Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına nəzarət üçün məsuliyyət daşıyır.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş konsolidasiya edilmiş maliyyə hesabatlarında ümumilikdə saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair əsaslandırılmış əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Əsaslandırılmış əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına (BAS-a) uyğun olaraq aparılmış auditin belə təhrifləri hər zaman aşkar edilməsinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud toplu olaraq, istifadəçilərin bu cur konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.